*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2025, №2* ISSN: 2664-5432
*Səhifə: 107- 115*
https://doi.org/10.59849/2664-5432.2025.2.107

**Gültəkin ƏLİYEVA***

# AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN SİNTAKTİK FUNKSİYALARI VƏ İFADƏ VASİTƏLƏRİ

**XÜLASƏ**

Yazılı və şifahi nitqin ahəngini yaradan təkcə əsas söz ehtiyatı deyil. Cümləyə məna incəliyi, əlaqə şəbəkəsi və intonasiya axını qazandıran elementlər də önəmlidir. Bu vəzifəni daşıyan köməkçi nitq hissələri leksik məzmundan çox qrammatik funksiya ilə seçilir və fikrin dəqiqliyini təmin edir. Onlar cümləyə vurğu nöqtəsi əlavə edir, məna münasibətlərini tənzimləyir, dil axıcılığını intonasiya uyğunluğuna bağlayır. Nəticədə mürəkkəb sintaktik strukturlar sadə və anlaşıqlı səslənir. Şifahi folklorda isə köməkçi sözlər dialoqun ritmini formalaşdırır, qəhrəmanların psixoloji portretini açır və emosional fon yaradır. Dilin tədrisi sahəsində köməkçi hissələr qrafika və fonetika dərslərində sürətli mənimsəmə vasitəsi rolunu oynayır, uşaqlar feil şəkilçilərini dərk etdikcə öz fikrini düzgün zaman və şəxs forması ilə ifadə edir.

**Açar sözlər:** *Köməkçi nitq hissələri, nitqin ifadə vasitələri, modal sözlər, morfoloji, sintaktik.*

Sözlərin nitq hissələrinə görə təsnifatı məsələləri dilçiliyin çətin və mübahisəli problemlərindən sayıldığına görə, bu dil vahidlərinin müxtəlif nitq hissələrinə görə bölünməsi prinsipi ayrı-ayrı dilçilər tərəfindən eyni qarşılanmayıb. Təbiidir ki, burada ilkin çətinlik onunla izah edilə bilər ki, bəzi sözlər eyni zamanda müxtəlif nitq hissələrinə aid edilir. Bu hal daha çox əsas nitq hissələri arasında, yəni sifətin isimlə, zərflə, sayla və feili sifətlə əlaqəsi sayəsində meydana çıxsa da, köməkçi nitq hissələri arasında da eyni problemlər özünü göstərir. Köməkçi nitq hissələrinə aid olan sözlər sırasında verilən nida eyni zamanda modal sözlər, təqlidi sözlər, ədatlar daha çox emosionallığa, danışanın fikrə münasibətinin ifadəsinə xidmət edir və elə bu səbəbdən də nidalar və nidalara aid edilə biləcək sözlərin digər köməkçi nitq hissələri sırasında da verilməsinə rast gəlinir. Müstəqil leksik mənaya malik olmasa belə, mətn və cümlə daxilində üzərinə müəyyən qədər semantik ağırlıq, yük götürən nidalar, ilk növbədə, sözdür və dilçilik əsərlərində dilin leksik və qrammatik mənaya malik əsas vahidi olan sözün mahiyyətinin təyin edilməsinə müxtəlif cür yanaşmalar müşahidə edilir. Nida kimi təqdim olunan eyni bir sözün müxtəlif mətnlərdə fərqli intonemlər, ayrı-ayrı məna çalarları, fərqli emosionallıq yaratmaq imkanına malik olduğunu nəzərə alsaq, deməli, sözün hərfi mənasına verdiyi izahat özünü bu dil vahidləri üçün də doğruldur. Hətta bədii dil təcrübəsində sözün həm nida, həm də müstəqil mənalı söz kimi çıxış edə bilmək faktına da rast gəlmək

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Sosiolinqvistika və psixolinqvistika şöbəsi, fil.ü.f.doktoru, dosent, aparıcı elmi işçi. Email: dr.gultekin.aliyeva@mail.ru

mümkündür. Azərbaycan dilçiliyində köməkçi nitq hissələri haqqında vahid bir fikrə rast gəlmək olmur. "Müasir Azərbaycan dili" kitabında haqlı olaraq qeyd edilir ki, "türkologiyada", xüsusilə Azərbaycan dilçiliyində nida ən az tədqiq olunmuş söz qrupudur. Tarixi qrammatikaya aid əsərlərdə bəzən köməkçi nitq hissələrindən danışarkən nida bəhsinə yer ayrılmamışdır. Azərbaycan dilinin tarixi qrammatikasında köməkçi nitq hissələrinin yerindən danışan H.Mirzəzadə bu anlayışa qoşma, ədat və bağlayıcıları daxil etmiş, nidanı köməkçi nitq hissəsi hissəsi kimi təqdim etməmiş, yalnız ədatlardan danışarkən ümumi məlumat hissəsində nida ilə ədatın oxşar və fərqli xüsusiyyətlərindən bəhs etmişdir [Mirzəzadə: 1959, s.34]. Azərbaycan dilinin morfologiyasına aid yazılan sonrakı əsərlərin əksəriyyətində üç köməkçi nitq hissəsi – qoşma, bağlayıcı və nidaları daxil edən əsərlər sırasında, ilk növbədə, "Azərbaycan dilinin qrammatikası" əsərini göstərmək lazımdır [Azərbaycan dilinin qrammatikası: 1960, s.33]. Bu əsərdə nidalar "Köməkçi nitq hissələri" adlı ümumi bir başlıq altında verildiyinə baxmayaraq, "Nidalar" bəhsində bu kateqoriyanın "Xüsusi bir nitq hissəsi" olduğu qeyd edilmişdir [Azərbaycan dilinin qrammatikası: 1959, s.102]. Ə.Rəcəblinin "Göytürk dilinin morfologiyası" adlı əsərində də nida köməkçi nitq hissələri bəhsində verilir, lakin müəllif elə oradaca nidaların köməkçi nitq hissələrinə daxil olmadığını, xüsusi nitq hissəsi olduğunu göstərir və nidanı ayrıca qrup nitq hissəsi kimi ayırır. Ə.Rəcəbli nidanı belə səciyyələndirir. "*...nidalar subyektin hissi və iradi oyanışını bildirən sözlərdir. Nida qrammatik cəhətdən dəyişmir, əşyanın adını, əlamətini, miqdarını və s. bildirmir, cümlə üzvləri və cümlələr arasında əlaqə yaratmağa xidmət etmir və özü də cümlə üzvü ola bilmir...* " [Rəcəbli: 2002, s.346].

Dildəki sözlərin qrammatik mənalarına görə əsas və köməkçi nitq hissələrinə ayrılması bir problem kimi, demək olar ki, həllini tapmışdır. Belə ki, hər hansı bir dildə sözün müstəqil leksik mənası varsa, o, birmənalı şəkildə əsas nitq hissəsi kimi, qalan hallarda isə söz köməkçi nitq hissəsi kimi təqdim olunur. Dilçiliyin qrammatikasının həll olunmamış mübahisəli məsələləri də məhz köməkçi sözlər ətrafında cərəyan edir.

Köməkçi nitq hissələri əsas söz köklərindən əmələ gəlib, onların inkişafı və semantik-qrammatik cəhətdən dəyişikliyə uğraması nəticəsində yaranan qrammatik vahidlərdir. Onlar nitq hissələri arasında əlaqə yaradır, nitqin emosional təsirini artırır, fikrin məntiqi və inandırıcı qurulmasına kömək edir, mətndə söylənilən fikrə münasibət bildirir və morfemləri zəncirvarı şəkildə bir-birinə bağlayaraq, onların sintaktuk vahid kimi fəaliyyətinə stimul yaradır. Köməkçi nitq hissələri özlüyündə heç bir məna-məzmun ifadə etmir, yanlız konkret bir sözə qoşulduqda fikrin düzgün, dəqiq və ifadəli şəkildə qurulmasına yardım edir. Prof. N.Abdullayev morfologiyanın üslubla bağlı məsələlərindən danışarkən yazır: "*Köməkçi nitq hissələrinin qoşma, bağlayıcı, ədat və modal sözlərin fikirdəki incə çalarların ifadə edilməsində, ekspressivliyin yaradılmasında müəyyən üslubi xüsusiyyətləri vardır ki, natiqlik sənətində bunlara diqqət yetiriməlidir. Bu baxımdan qoşmaların müəyyən*

*üslubi çalarlıq yaratmaq xüsusiyyətləri daha çox nəzərə çarpır*" [Abdullayev: 2004, s.161].

Sözlər dilçilikdə (morfologiyada) əsasən nitq hissələri kimi öyrənilir. Nitq hissələri öz mənalarına, cümlədə digər sözlərlə münasibətinə, roluna və qrammatik formasına görə fərqlənən söz sinifləridir. Adətən qrammatikanın morfologiya şöbəsində öyrənilən və "nitq hissələri" adlandırılan sözün qrammatik qrupları ardıcıl olaraq müəyyənləşdirilmiş və bütün dillərin qrammatikadan bəhs edən əsərlərində bu və ya digər dərəcədə öyrənilmişdir. Nitq hissələri ilə bağlı bir neçə nəzəri istiqamət mövcuddur. Bir qrup mütəxəssis üçün nitq hissəsi sözə məxsus olan bütün semantik, morfoloji və sintaktik əlamətlərin cəmini özündə ümumiləşdirən leksik-qrammatik söz kateqoriyasıdır. Başqalarının fikrincə, nitq hissəsi formal qrammatik kateqoriya, yaxud ayrılıqda sözün ancaq morfoloji xüsusiyyətləri əsasında, habelə sintaktik funksiyanı da nəzərə almaqla müəyyənləşdirən söz sinfidir. O.P.Sunik isə belə hesab edir ki, nitq hissələrinin təsnif meyarları həmin dilin tipoloji quruluşundan asılıdır. Yəni bundan asılı olaraq hər bir dildə müxtəlif meyarların tətbiqi üstünlük təşkil edir. O qeyd edir ki, rus və digər dillərdə isim, sifət, say, əvəzlik bir qrupda birləşə bilsə də, bir qrup dillərdə (məsələn, Çin dilində) bu, belə olmur. Dilçi bütün təsnif meyarlarını qəbul edir və nitq hissələrini leksik-qrammatik söz qrupları adlandırır.

Rus dilində də ən məşhur dilçilər nitq hissələrinə, onların təsnifinə dair müxtəlif fikirlər söyləmişlər. Müasir rus dilçiliyi bu sahədə, o cümlədən digər sahələrdə bu dilin tədqiqatçılarından hamı tərəfindən daha çox qəbul edilən akademik V.V.Vinoqradovun fikirlərinə söykənir, əsasən ona istinad edir. V.V.Vinoqradov rus dilində nitq hissələrinin müxtəlif kateqoriyalar üzrə bölündüyünü qəbul edir. Onun fikrincə, müxtəlif nitq hissələrinə aid olan sözlər sintaktik vəzifələrinə, morfoloji xüsusiyyətlərinə, leksik mənalarına, məntiqi və qrammatik kateqoriyalarına görə fərqlənir. V.V.Vinoqradov rus dilində sözləri bu cür qruplaşdırır: "*Əsas nitq hissələri – adlar (isim, say, sifət), əvəzlik, feil, zərf, vəziyyət kateqoriyası; köməkçi nitq hissələri (ədat, bağlayıcı, önlük), nida, modal sözlər*" [Виноградов: 1947, s.45].

Köməkçi nitq hissələrinin müstəqil leksik mənaları olmur, heç bir suala cavab vermir və buna görə də cümlə üzvü ola bilmir. Mənşə etibarilə əsas nitq hissələrindən törəyən köməkçi nitq hissələri cümlənin təşkilində yardımçı rola malikdir. Onlar da sözlər və cümlələr arasında qrammatik əlaqə və münasibətləri təmin edir, ya da fikrin formalaşmasında rəngarəng çalarlıqlar və emosional – ekspressiv boyalar yaradaraq, danışan şəxsin, bəzən də başqasının müxtəlif hissi münasibətlərinin ifadəsinə xidmət göstərmiş olur. Bu baxımdan köməkçi nitq hissələrinin özlərini də iki qismə ayırmaq olar:

a) sözlər və cümlələr arasında müxtəlif əlaqə və münasibətləri təmin edən köməkçi nitq hissələri. Bunlara qoşma və bağlayıcı daxildir;

b) müxtəlif emosional-ekspressiv və hissi münasibətlərin ifadəsinə xidmət edən köməkçi nitq hissələri. Bunlara ədat və modal sözləri daxil etmək olar.

Köməkçi nitq hissələri içərisində modal sözlərin ilkin məna ilə, yəni yarandığı nitq hissəsi ilə bağlılığı daha aydın hiss olunur və buna görə digər köməkçi nitq hissələrinə nisbətən modal sözlərin bir qismində lüğəvi məna bildirmək meyli qüvvətlidir.

Nida və yamsılamalar daha çox hiss və duyğuların verilməsi və ya müəyyən təbiət səslərinin, görünüşün yamsılanması ilə bağlı olan nitq hissələridir.

Azərbaycan dilçiliyində nitq hissələri və onların təsnifl, sayı və digər məsələlər həmişə diqqət mərkəzində olmuşdur. M.Şirəliyev, M.Hüseynzadə, S.Cəfərov, F.Zeynalov, A.Qurbanov, B.Əhmədov, A.Axundov, C.Cəfərov və başqaları nitq hissələri ilə bağlı flkirlərini söyləmişlər.

M.Hüseynzadə 1954-cü ildə çap olunmuş "Müasir Azərbaycan dili" kitabında nitq hissələrini müstəqil nitq hissələri, köməkçi nitq hissələri və ədat deyə üç qrupa ayırmışdır. 1960-cı ildə çap olunmuş "Azərbaycan dilinin qrammatikası" kitabında da 12 nitq hissəsi göstərilmişdir. Daha sonralar S.Cəfərov nitq hissələrini 10 yerə bölmüşdür: altı əsas, üç köməkçi və nidanı xüsusi nitq hissəsi kimi.

M.Hüseynzadə 1983-cü ildə nəşr olunmuş "Müasir Azərbaycan dili" kitabında nitq hissələrini əsas, köməkçi və xüsusi olmaqla üç qrupa bölmüşdür.

Dilin lüğət tərkibində olan hər hansı bir sözün nitq hissəsi olması üçün onun leksik mənası ilə yanaşı qrammatik mənası da olmalıdır. Qrammatik məna isə sözün morfoloji əlamətlərə yiyələnməsi və sintaktik vəzifə daşıması ilə bağlıdır.

Dilin lüğət tərkibindəki sözləri nitq hissələrinə böldükdə onların leksik mənası, morfoloji əlaməti, sintaktik vəzifəsi ümumiləşdirici mahiyyət kəsb edir, əgər belə olmazsa, sözləri nitq hissələrinə bölmək mümkün olmaz. Bütün bu deyilənləri nəzərə almaqla nitq hissələrinə belə bir tərif vermək olar:

Dilln lüğət tərkibindəki sözlərin müstəqil mənasına, morfoloji əlamətinə və slntaktik vəzifəsinə görə qruplara bölünməsinə nltq həssələri deyilir.

Nitq hissələri müstəqil mənasına, morfoloji xüsusiyyətlərinə və sintaktik vəzifəsinə görə əsas, köməkçi, xüsusi və qeyri-müəyyən nitq hissələri olmaqla dörd qrupa ayrılır.

Əsas nitq hissələri - isim, sifət, say, əvəzlik, feil, zərf.

Köməkçi nitq hissələri - qoşma, bağlayıcı, ədat.

Xüsusi nitq hissələri - nida, təqlidi sözlər, modal sözlər.

Qeyri-müəyyən nitq hissələri - imperativ sözlər, uşaq sözləri, ritmik sözlər.

Cümlədə müstəqil bir üzv kimi işlənməyən, ayrılıqda müstəqil lüğəvi mənaya malik olmayan, heç bir suala cavab verməyən, hərəkət, hadisə, əşya, əlamət və keyfıyyət bildirməyən sözlərə köməkçi nitq hissələri deyilir.

Köməkçi nitq hissələri mənşə etibarı ilə əsas nitq hissələrindən əmələ gəlmişdir, lakin müəyyən şərtlərlə onlardan fərqlənir.

Əsas nitq hissələri müstəqil mənaya malikdir. Köməkçi nitq hissələri isə yalnız qrammatik məna daşıyırlar.

Əsas nitq hissələri qrammatik morfoloji göstəriciləri qəbul edir, morfoloji formalara düşür, qrammatik kateqoriyalara yiyələnə bilir. Bu xüsusiyyətlər isə köməkçi nitq hissələrində yoxdur.

Əsas nitq hissələri müstəqil işlənir, müəyyən suallara cavab verir və müstəqil cümlə üzvü olur. Köməkçi nitq hissələri isə bu xüsusiyyətləri daşımır.

Köməkçi nitq hissələri tarixilik baxımından da fərqlənir. Əsas nitq hissələrinin yaranma tarixi daha qədimdir. Köməkçi nitq hissələri isə əsas nitq hissələrindən yaranmışdır. Məsələn: sarı, başqa, özgə, qeyri, savayı qoşmaları, əvvəl əsas nitq hissələri olmuş, sonra isə köməkçi nitq hissələrlnə keçmişdir. Ona görə də bu sözlər omonimləşir. Məsələn: *Səndən özgə - özgə adamlar*.

Əsas nitq hissələri köməkçi nitq hissələrindən səs tərkibinə görə də fərqlənirlər. Köməkçi nitq hissələrinin bəzilərinin səs tərkibi şəkilçilərə yaxındır.

Rus dilində köməkçi nitq hissələri adətən bir neçə meyar əsasında müəyyən edilir: morfoloji, sintaktik və semantik. Sözlərin ən çox hallandığı bir dil olan rus dilində morfoloji meyar ən dəqiq nəticəni verir ki, bu da müvafiq siniflərin prototip elementlərinin qrammatik morfoloji xüsusiyyətlərindəki fərqdir. Məsələn, müəyyən morfoloji strukturu ilə fərqlənən, qrammatik mənalar toplusuna malik olan və müəyyən mənada dəyişilən sözlər краснеть və осиротеть feillərə, bu nöqteyi-nəzərdən fərqli quruluşa malik olan краснота и сирота sözləri isimlərə aiddir. Sintaktik, semantik və digər meyarlar heç də həmişə morfoloji ilə eyni nəticəni vermir. Buna görə də müxtəlif müəlliflər rus dilində nitq hissələrinin sayı və tərkibi, bölgüsü bu və ya digər konkret leksemlərin hansı nitq hissəinə aid olması kimi məsələlərə müxtəlif cür yanaşırlar.

Ən çox geniş yayılmış şərhlərdən biri rus dilində 10 nitq hissəsinin olduğunu bildirir:

isim (*человек, кошка, солнце, прогресс*);
sifət (*красный, морской, папин*);
əvəzlik (*она, свой, который*);
say (*два, тринадцатый, семеро*);
feil (*говорить, принадлежать, крикнуть, пустовать*);
zərf (*сильно, зверски, вразнобой*);
ön söz (*к, благодаря*);
bağlayıcı (*а, однако, что*);
hissəcik (*же, точно*);
nida (*эх, батюшки*).

Nitq hissələrinin təyini zamanı ənənəvi və intuitiv olaraq müəyyənləşdirilmiş siniflərin morfoloji və semantik müxtəlifliyi ilə bağlı çoxlu mübahisəli suallar yaranır. Bəzi şərhlərdə bu siyahıya daxil edilməyən və onu tamamlayan nitq hissələri verilir (əlavə sözlər, əvəzliklərin müxtəlif növləri, əvəzlikli sözlər, predikativ, feili sifət), həmçinin bu siyahıdan bir neçə nitq hissəsini birləşdirən (adyektiv, substantiv, dəyişilməyən sözlər kimi) nitq hissələri də mövcuddur.

Yuxarıda qeyd olunanlarla yanaşı predikativ də ayrıca nitq hissəsi kimi təyin edilmişdir.

Rus dilində morfoloji işarələnmədə yuxarıda qeyd olunanlarla yanaşı, ədədi-sifət, əvəzlik-sifət, əvəzlik-zərf, pronominal predikativ və əlavə söz də ayrıca söz sinifləri kimi seçilir. Bundan əlavə, mətndə baş hərflərdən və qeyri-leksik elementlərdən (adətən xarici sözlər) üçün xüsusi işarələr var.

Köməkçi nitq hissələrinin müəyyən edilməsində morfoloji və leksiko-qrammatik cəhət əsas götürülür. Müxtəlif mərhələlərdə bir neçə meyar tətbiq edən çoxqatlı nöqteyi-nəzər də mövcuddur ki, bunlar ilk növbədə müəyyən bir dilin identifikasiyası ilə deyil, müxtəlif strukturlu dillərdə söz tiplərinin təsnifatının tipoloji müqayisəsi ilə əlaqədardır.

Rus dilçilik ənənəsində köməkçi nitq hissələrinin müəyyən edilməsinə morfoloji yanaşma (morfoloji nöqteyi-nəzər) ilk dəfə F.F.Fortunatov, Moskva Məktəbi və strukturalizm (Cenevrə və Praqa məktəbləri) ilə əlaqələndirilir. Burada Fortunatov köməkçi nitq hissələrini "formal siniflər" adlandırırdı. Bu yanaşma çərçivəsində ən məşhur təsnifatlar N.N.Durnova, A.M.Peşkovski tərəfindən təklif edilmiş və müasir tədqiqatçılar P.Qarde, A.K.Polivanova və başqaları tərəfindən hazırlanmışdır. Bu yanaşma söz növlərinin müəyyən edilməsində ilk növbədə qrammatik meyarlardan istifadə edir, yəni leksemin müxtəlif söz əvəzetmə kateqoriyalarının olub-olmadığını nəzərə alır.

Başqa sözlə desək, bu yanaşmada eyni morfoloji kateqoriyalara malik olan leksemlər toplusu söz növü hesab edilir. Məsələn, rus dilində yalnız feillər şəxsdə dəyişə bilər. Moskva F.F.Fortunatov məktəbinin ənənələrini davam etdirən P.S.Kuznetsov yazırdı: "*Köməkçi nitq hissələri müəyyən morfoloji xüsusiyyətləri ilə seçilən söz sinifləridir; bu siniflər müəyyən leksik modifikasiya formalarına malik olmaqla səciyyələnir*" [Кузнетсов: 1965, s.63]. Morfoloji yanaşma tipoloji cəhətdən universal deyil, lakin zəngin morfologiyaya malik bir dil kimi rus dilinə tətbiq oluna bilər.

Funksional sözlər cümlə elementi olmayan qrammatik elementlərdir. Onların funksiyası sintaktik bağlılığı (bağlamaları) təmin etmək və müxtəlif köməkçi, qeyri-söz mənalarını ifadə etməkdən ibarətdir: qrammatik mənalar (ön sözlər, analitik göstəricilər), diskurs mənaları (hissəciklər), modal və praqmatik qiymətləndirmə (əlavə sözlər). Prepozisiyaların feillər və ya predikativlər kimi öz sintaktik idarəetmə modeli var.

Morfoloji cəhətdən funksional sözlər dəyişməzdir və qrammatik işarələr əlavə etmir, baxmayaraq ki, analitik qrammatikaya malik dillərdə onların özlərində belə işarələr ola bilər. Rus dilində bu analitik tapşırıq göstəricilərinə, məsələn, şərti əhval-ruhiyyənin göstəricisi olan "бы" və imperativ əhval-ruhiyyənin göstəriciləri olan "*пусть*", "*пускай*", "*да*" daxildir.

Funksional sözlərin tezliyi həm sinxron, həm də diaxronik, mətn növündən və rəngarəngliyindən asılı olmayaraq kifayət qədər sabitdir, ən azı ön sözlər və bağlayıcılar üçün; hissəciklər bədii və şifahi dil janrlarına daha çox xasdır.

Adətən nə funksiyaya, nə də mənalı sözlərə aid olmayan xüsusi sinif olaraq aşağıdakıları qeyd etmək olar:

Kontekstlər əsasən müstəqil məna əmələ gətirə bilən rol oynayır. Onlar sintaktik olaraq ayrılmış mövqedə yerləşirlər. Ümumiyyətlə, leksiko-qrammatik yanaşma çərçivəsində kontekstlər söz növləri arasında nəzərə alınmır və bu təsnifatdan kənar söz sinfi hesab olunur. Kontekstlərdə bu söz siniflərinə sözlər toplusu (ibarə sözləri) əlavə edilir.

Köməkçi sözlər (ön sözlər, bağlayıcılar və hissəciklər) dəyişməz olduğu üçün morfoloji meyar baxımından zəif müəyyənləşib. Bir-birindən və zərflərdən (müqayisəli dərəcə zərf sayılmayan hallar istisna olmaqla) fərqləndirilə bilməz. Onlara tabe olan morfoloji təhlilin yeganə növü qeyri-törəmə (kimi, az, və ya) və törəmə xidməti sözləri (güclü, həmçinin, sayəsində, birbaşa) fərqləndirən söz yaradıcılığı təhlilidir. Alınma sözlər arasında söz əmələ gəlməsinin müxtəlif növləri vardır. Zərflər və törəmə xidməti sözlər arasındakı fərq bu sahədə aktiv polisemiya/sinonimiya ilə çətinləşir (məsələn, birbaşa – zərf və hissəcik, ətrafında – zərf və ön söz). Bütün bu sözlərin vahid "zərf" sinfində birləşdirilməsi formal yanaşması fransız və amerikan ənənələrində qəbul edilmişdir. Erkən rus ənənəsində XIX əsrin ortalarına qədər (məsələn, Lomonosovda) hissəciklər zərflərlə birləşdirilirdi. Ön sözlər, bağlayıcılar və hissəciklər arasında fərq ilk növbədə semantik və sintaktik meyarlar əsasında aparılır. Məsələn, ön söz sintaktik təklif qrupunun tərkib hissəsidir, bağlayıcı isim qrupları və predikatlar arasında sintaktik əlaqənin işarəsidir. Ənənəvi "hissəcik" anlayışı semantik və sintaktik cəhətdən kifayət qədər müxtəlifdir – hissəcik əhəmiyyətli dərəcədə artan prinsipə əsasən formalaşan kateqoriyadır. Ənənəvi olaraq, bu sözlər ya söz növü baxımından müəyyən edilmir, ya da zərflər, ön sözlər və bağlayıcılar kimi təsnif edilir.

Köməkçi nitq hissələri Azərbaycan və rus dillərində morfoloji baxımdan xüsusi əhəmiyyət kəsb edən qrammatik vahidlərdir. Onlar əsas nitq hissələrindən törəmə olub, müstəqil leksik məna daşımırlar və cümlədə müstəqil üzv kimi çıxış etmirlər. Lakin morfoloji xüsusiyyətləri, yəni dəyişməzliyi və formalaşmış qrammatik kateqoriyalara malik olmamaları onların funksional rolunu daha aydın göstərir. Köməkçi nitq hissələri sintaktik əlaqələrin qurulmasında, mətnin qrammatik bütövlüyünün təmin edilməsində və nitqin emosional-ekspressiv rəngarəngliyinin yaradılmasında mühüm vasitədir.

Azərbaycan dilində köməkçi nitq hissələri əsas nitq hissələrindən formalaşmış qoşma, bağlayıcı, ədat və modal sözlərdən ibarət olub, yalnız qrammatik mənaya malikdirlər. Onlar sözlər və cümlələr arasında əlaqə yaradır, fikrin düzgün və ifadəli şəkildə qurulmasına xidmət edir. Rus dilində də morfoloji meyarlar əsas götürülərək köməkçi nitq hissələri (ön sözlər, bağlayıcılar, hissəciklər) müəyyən edilir və onların dəyişməzliyi, qrammatik işarələrlə fərqlənməsi xüsusilə vurğulanır.

Morfoloji təhlil göstərir ki, köməkçi nitq hissələrinin təyini leksik və sintaktik meyarlardan asılı olsa da, onların ümumi qrammatik funksiyası dəyişməz qalır: onlar sözlərin qrammatik münasibətlərini müəyyən edir, mətnin semantik struktu-

runu dəstəkləyir və nitqin morfoloji bütövlüyünü təmin edir. Həm Azərbaycan, həm də rus dillərində köməkçi nitq hissələrinin morfoloji təhlili onların dilin qrammatik sistemindəki yerini və funksional əhəmiyyətini açıq şəkildə nümayiş etdirir.

Köməkçi nitq hissələrinin üslubi mənzərəsindən bəhs edərkən belə qənaətə gəlinir ki, köməkçi nitq hissələri əsas söz köklərindən əmələ gəlib, onların inkişafı və semantik-qrammatik cəhətdən dəyişikliyə uğraması nəticəsində yaranan qrammatik vahidlərdir. Onlar nitq hissələri arasında əlaqə yaradır, nitqin emosional təsirini artırır, fikrin məntiqi və inandırıcı qurulmasına kömək edir, mətndə söylənilən fikrə münasibət bildirir və morfemləri zəncirvari şəkildə bir-birinə bağlayaraq, onların sintaktik vahid kimi fəaliyyətinə stimul yaradır. Köməkçi nitq hissələrinin emosional-ekspressiv üslubun yaranmasında bir başa iştirakı diqqəti çəkir.

Dilimizin morfolji quruluşu məhz qrammatik normalara düzgün riayət etməklə formalaşır. Burada dilin iltisaqiliyi, ayrı-ayrı kateqoriyaların özünəməxsus xarakteri də əsas rol oynayır. Məsələ burasındadır ki, morfoloji quruluş və onun vahidlərindən düzgün istifadə bəzən həmin vahidlərin sintaktik funksiyası ilə əlaqəli olur. Rus dilçiliyində də məsələ, demək olar ki, eyni cür qoyulur. Nitqun sintaktik düzülüşündən danışılarkən vurğulanır ki, "*morfoloji və sintaktik kateqoriyalar arasında sıx əlaqə sintaktik vasitələrin öyrənilməsi zamanı morfoloji vasitələr üzərində işi davam etdirməyi tələb edir*" [Пустовалов: 1987, s.116]. Təsadüfi deyildir ki, bir çox sintaktik kateqoriyalar morfolji vasitələrin köməyi ilə yaranır; daha doğrusu, morfolji vasitələr özünüifadə imkanlarını söz birləşməsi, cümlə və mətn daxilində reallaşdırır.

Beləliklə, morfoloji istiqamətdə aparılan təhlil köməkçi nitq hissələrinin təkcə qrammatik vasitə kimi deyil, həm də mətnin ifadə vasitəsi kimi əhəmiyyətini ortaya qoyur, onların leksik və qrammatik strukturlarla qarşılıqlı əlaqəsini aydınlaşdırır və dilin morfoloji sistemində ayrılmaz yer tutduğunu göstərir.

**ƏDƏBİYYAT**


1. Mirzəzadə Ş. Azərbaycan dilinin tarixi qrammatikası. (Köməkçi nitq hissələri). Bakı, ADU nəşri, 1959.
2. Azərbaycan dilinin qrammatikası. II hissə. Bakı, Azərb. SSR EA nəşr.-tı, 1960.
3. Azərbaycan dilinin qrammatikası. Bakı, Azərb. SSR. EA nəşriyyatı, 1951.
4. Rəcəbli Ə. Göytürk dilinin morfologiyası. Bakı, BDU nəşri, 2002, 464 s.
5. Abdullayev N.Ə. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı, ADPU,2004,176 s.
6. Виноградов В.В. Русский язык (Грамматическое учение о слове). Москва-Ленинград, Учпедгиз, 1947, 496 с.
7. Кузнетсов П.С. Историческая грамматика русского языка: Морфология. – 2-ое издание. Москва, 1965.
8. Пустовалов П.С.,Сенкевич М.П. Пособие по развитию речи. Москва, Просвещение, 1987, 288 с.

## SYNTACTIC FUNCTIONS AND MEANS OF EXPRESSION OF FUNCTIONAL PARTS OF SPEECH IN THE AZERBAIJANI AND RUSSIAN LANGUAGES

**SUMMARY**

It is not only the main vocabulary that creates harmony in written and spoken language. Elements that add semantic subtlety, a network of connections, and intonational coherence to a sentence are also important. The auxiliary parts of speech that perform this function differ not in lexical meaning, but in grammatical function, ensuring precision of thought. They add emphasis to the sentence, regulate semantic relationships, and link the fluency of speech with intonational harmony. Thanks to this, complex syntactic constructions sound simple and clear. In oral folk creativity, auxiliary parts of speech shape the rhythm of dialogue, reveal the psychological portrait of the characters, and create an emotional background. In the field of language teaching, auxiliary parts of speech serve as a means of rapid learning during lessons in graphics and phonetics: by understanding verb endings, children express their thoughts correctly in terms of tense and person.

**Keywords:** *Auxiliary parts of speech, means of expression in speech, modal words, morphological, syntactic*.

## СИНТАКСИЧЕСКИЕ ФУНКЦИИ И СРЕДСТВА ВЫРАЖЕНИЯ СЛУЖЕБНЫХ ЧАСТЕЙ РЕЧИ В АЗЕРБАЙДЖАНСКОМ И РУССКОМ ЯЗЫКАХ

**РЕЗЮМЕ**

Не только основной словарный запас создаёт гармонию письменной и устной речи. Важны также элементы, придающие предложению смысловую тонкость, сеть связей и интонационную связность. Вспомогательные части речи, несущие эту функцию, отличаются не лексическим содержанием, а грамматической функцией и обеспечивают точность мысли. Они добавляют в предложение акцент, регулируют смысловые отношения и связывают беглость речи с интонационной гармонией. Благодаря этому сложные синтаксические конструкции звучат просто и понятно. В устном народном творчестве вспомогательные части речи формируют ритм диалога, раскрывают психологический портрет героев и создают эмоциональный фон. В области преподавания языка вспомогательные части речи играют роль средства быстрого усвоения на уроках графики и фонетики, понимая окончания глаголов, дети выражают свои мысли в правильной форме времени и лица.

**Ключевые слова:** *Служебные части речи, средства выражения речи, модальные слова морфологический, синтаксический*.